Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun iclasının

PROTOKOLU

Bakı şəhəri *12 iyul, 2023-cü il*

Sədrlik edirdi:

Rəşad Orucov – Mərkəzi Bankın sədrinin birinci müavini, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun rəhbəri.

İştirakçılar:

1. Vüsal Şıxəliyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri;
2. Fərahim Hüseynzadə – Nazirlər Kabinetinin Hüquq və qanunvericilik şöbəsinin aparıcı məsləhətçisi, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun rəhbərinin müavini;
3. Rüstəm Tahirov – Mərkəzi Bankın Maliyyə sabitliyi departamentinin direktoru;
4. Kəmalə Qurbanova – Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru;
5. Anar Quliyev – Mərkəzi Bankın İnformasiya texnologiyaları departamentinin direktoru;
6. Zaur Hacılı – Mərkəzi Bankın Maliyyə monitorinqi departamentinin direktoru;
7. Orxan Abdullayev – Mərkəzi Bankın Kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin 1-ci nəzarət şöbəsinin rəisi;
8. Ramil Mahmudov – Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin Milli Ödəniş Sisteminin inkişafı və nəzarəti şöbəsinin rəisi;
9. Vüqar Məsimov – Mərkəzi Bankın İnformasiya texnologiyaları departamentinin Reyestr bölməsinin rəhbəri;
10. Mehdi Mehdizadə – Mərkəzi Bankın Hüquq departamentinin Maliyyə bazarlarının hüquq təminatı şöbəsinin böyük hüquq məsləhətçisi;
11. Səmra Talışinskaya-Abbasova – Mərkəzi Bankın Maliyyə sabitliyi departamentinin Maliyyə sabitliyinin təhlili və modelləşdirmə şöbəsinin böyük iqtisadçısı;

12. Məhəmməd Muradov – Mərkəzi Bankın Maliyyə monitorinqi departamentinin Təhlil və metodologiya şöbəsinin böyük mütəxəssisi;
13. Rəşad Qasımov - Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin Milli Ödəniş Sisteminin inkişafı və nəzarəti şöbəsinin böyük mütəxəssisi;
14. Seymur Əliyarlı – Mərkəzi Bankın Kapital bazarı fəaliyyətinə dair siyasət və nəzarət departamentinin Siyasət və bazarın inkişafı şöbəsinin böyük analitiki;
15. Günay Mahmudova – Mərkəzi Bankın Hüquq departamentinin Maliyyə bazarlarının hüquqi təminatı şöbəsinin böyük hüquq məsləhətçisi;
16. Yunus Abdulov – Azərbaycan Banklar Assosiasiyasının icraçı direktoru;
17. Vüsal Həsənov – Azərbaycan Banklar Assosiasiyasının aparıcı iqtisadçısı;
18. Elçin Həbibov – Azərbaycan Kredit Bürosunun Baş direktoru;
19. Seymur Həsənov - "Azərbaycan Kredit Bürosu" MMC-nin (AKB) baş direktorunun müavini;
20. Rasim Həbibzadə – Azərbaycan Kredit Bürosunun Biznesin İnkişafı Departamentinin baş mütəxəssisi;
21. Cəlal Əliyev – Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədri;
22. Süleyman Kələşov – Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədrinin müavini;
23. Jalə Hacıyeva – Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru;
24. İlkin Əliyev – Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Biznesə xidmətlər departamentinin KOB-ların maliyyə mənbələrinə çıxışına dəstək şöbəsinin müdiri;
25. Turanə Axundova – "Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyinin hüquqşünası;
26. Ceyhun Hacıyev - Azərbaycan Fond Bazarı İştirakçıları Assosiasiyasının İdarə Heyətinin sədri;
27. Toğrul Rəhimbəyli – Dövlət Neft Fondunun Risklərin idarə edilməsi departamentinin Modelləşdirmə və gəlirliliyin ölçülməsi şöbəsinin müdiri;
28. Aytac Rzazadə - Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin İqtisadi normativ aktlar idarəsinin məsləhətçisi;
29. Kənan Musayev – Mərkəzi Bankın Maliyyə sabitliyi departamentinin Maliyyə sektorunun inkişafı və innovasiyalar şöbəsinin böyük iqtisadçısı, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun katibi;

30. Tofiq Ömərov – Mərkəzi Bankın Maliyyə sabitliyi departamentinin Maliyyə sektorunun inkişafı və innovasiyalar şöbəsinin aparıcı iqtisadçısı;

Gündəlikdə olan məsələlər:

- "Bussiness Ready" hesabatının Maliyyə xidmətləri indikatoru üzrə cavablandırılmış sorğu vərəqələri və qiymətləndirmə nəticələrinin müzakirəsi.

İclasın gedişatı

Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun rəhbəri **Rəşad Orucov** Dünya Bankının "Business Ready" hesabatının Maliyyə xidmətləri indikatoru üzrə cavablandırılmış sorğu vərəqələri və qiymətləndirmə nəticələrinin müzakirəsi ilə bağlı təşkil edilən iclası açıq elan edərək gündəlikdə duran məsələlər barədə məlumat verdi. **Rəşad Orucov** "Business Ready" hesabatının yeni metodologiyasının qəbul edilməsi ilə əlaqədar layihəyə uyğun olaraq ilkin qiymətləndirmə aparıldığını və metodologiyaya uyğun şəkildə sorğu vərəqələrinin doldurularaq ilkin nəticənin əldə olunduğunu diqqətə çatdırdı.

Daha sonra, Mərkəzi Bankın Maliyyə sabitliyi departamentinin böyük iqtisadçısı, İşçi qrupunun katibi **Kənan Musayev** çıxış edərək qiymətləndirmə nəticələri və metodologiya barədə ətraflı məlumat verdi. "Bussines Ready" hesabatının Maliyyə xidmətləri indikatorunun 3 əsas komponent əsasında qiymətləndirildiyini qeyd etdi, qiymətləndirmə sorğusunun 1-ci və 2-ci komponenti üzrə əldə edilmiş nəticələri iclas iştirakçılarının diqqətinə çatdırdı.

İşçi qrupunun rəhbəri **Rəşad Orucov** elektron ödənişlər üzrə tənzimləyici çərçivənin yaradılması ilə bağlı "Ödəniş xidmətləri və ödəniş sistemləri" haqqında Qanunun Milli Məclisdə 3-cü oxunuşda qəbul edildiyini qeyd etdi. O həmçinin, Qanun qüvvəyə mindikdən sonra qısa müddət ərzində Mərkəzi Bank tərəfindən normativ bazanın qəbul edilməsi üzrə işlərin həyata keçiriləcəyini vurğuladı və Qanundan irəli gələn bir sıra normativ sənədlərin layihələrinin artıq hazır olduğunu bildirdi. Eyni zamanda, dayanıqlı maliyyə üzrə hüquqi və requlyativ çərçivənin yaradılmasının önəmini vurğuladı və bu istiqamətdə Mərkəzi Bank tərəfindən həyata keçirilən təşəbbüsləri qeyd etdi. Mərkəzi Bank tərəfindən yaşıl istiqrazların yerləşdirilməsinə dair müvafiq qanunvericilik aktlarına düzəlişlər haqqında Qanun layihəsinin Nazirlər Kabinetinə təqdim olunduğunu bildirdi və

Qanun layihəsinə dair İqtisadiyyat Nazirliyindən daxil olmuş rəylərin müzakirə edildiyini diqqətə çatdırdı. Azərbaycan Kredit Bürosunun digər ölkələrin büro/reyestrləri ilə məlumat mübadiləsinin aparılmaması ilə əlaqədar müvafiq istiqamətdə hüquqi məhdudiyyətin olmadığını, lakin bununla bağlı risklər və faydaların ətraflı təhlilinin aparılması, digər ölkə təcrübələrinin öyrənilməsi və müvafiq yanaşmaların müəyyən olunmasına ehtiyac olduğunu vurğuladı. Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrində seriya nömrəsi ilə axtarışın aparıla bilməməsi ilə bağlı **Rəşad Orucov** bu istiqamətdə Beynəlxalq Maliyyə Koporasiyası ilə müzakirələrin və müvafiq yanaşmaların müəyyən olunması istiqamətində işlərin aparıldığını qeyd etdi.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri **Vüsal Şıxəliyev** çıxış edərək "Business Ready" hesabatının Maliyyə xidmətləri indikatoru üzrə ilkin qiymətləndirmə çərçivəsində Mərkəzi Bank tərəfindən ciddi və intensiv yanaşma sərgiləndiyini və əhəmiyyətli nəticələr əldə olunduğunu vurğuladı. O, İşçi qrupunun görüşündə əsas məqsədin əldə olunmuş nəticələrin daha da yaxşılaşdırılması perspektivlərini müzakirə etmək olduğunu qeyd etdi. Metodologiyanın daha yaxşı mənimsənilməsi və müvafiq sualların aydınlaşdırılması məqsədilə may-iyun aylarında Dünya Bankı tərəfindən sorğu-cavab sessiyalarının təşkil edildiyini və Mərkəzi Bank nümayəndələrinin də həmin sessiyalarda aktiv iştirak etdiyini vurğuladı. Ümumilikdə, Dünya Bankı tərəfindən qiymətləndirmədə özəl sektor iştirakçılarının fikirlərinin mötəbər mənbə kimi nəzərə alınacağını bildirdi.

Daha sonra qiymətləndirmə sorğusu üzrə cavabların ünvanlı şəkildə müzakirəsinə başlanıldı. **Vüsal Şıxəliyev** qiymətləndirmə sorğusunda sualların cavabları üzrə mənbə və istinadların qeyd olunmasının önəmini qeyd edərək müvafiq istinadların həm Dünya Bankı ekspertləri, həm də özəl sektor iştirakçılarına təqdim ediləcəyini vurğuladı. Cavab olaraq, **Rəşad Orucov** suallar üzrə cavablandırmada müvafiq hüquqi və normativ sənədlərə istinad olunacağını əlavə etdi. Yaşıl maliyyələşmə ilə əlaqədar **Rəşad Orucov** korporativ idarəetmə haqqında yeni qaydalarda ətraf mühitlə bağlı risklərin bankların risk idarəetməsi çərçivəsinə inteqrasiyasına dair tələblərin hazırlandığını qeyd etdi. Yaşıl maliyyələşmə üzrə digər məsələlərin isə Dayanıqlı maliyyə üzrə Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlərin icrası çərçivəsində öz həllini tapacağını vurğuladı və bu sahədə digər qurumlarla birgə fəaliyyətlərin zəruri olduğunu qeyd etdi. **Vüsal Şıxəliyev** yaşıl maliyyələşmə üzrə digər qurumlardan asılı məsələlər üzrə tədbirlərin müəyyən edilməsini və Komissiyanın sədri tərəfindən təsdiq edilməklə 2023-cü il üzrə Yol Xəritəsinə əlavə olunaraq digər

qurumlar üçün də məcburi xarakter almasının məqsədəuyğun olduğunu qeyd etdi və beləliklə bu istiqamətdə fəaliyyətlərin sürətləndirilə biləcəyini bildirdi.

Mərkəzi Bankın İnformasiya texnologiyaları departamentinin direktoru **Anar Quliyev** Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrində digər daşınar əmlakların, o cümlədən motorlu nəqliyyat vasitələrinin yüklülüyünün aparılmadığını qeyd etdi və mərkəzləşdirilmiş reyestrin yaradılması üçün hüquqi çərçivənin formalaşdırılmasına ehtiyac olduğunu vurğuladı. Anar Quliyev məlumatların informativ xarakterli ötürülməsinin bildiriş əsaslı reyestrlərin işləmə prinsipləri ilə ziddiyət təşkil etdiyini və reyestrlərə üstünlük hüququnun əsas amillərdən biri olduğunu vurğuladı, həmçinin məlumatların reyestrdə açıq olub-olmaması məsələsinin də dəqiqləşdirilməsinə ehtiyac olduğunu qeyd etdi. **Günay Mahmudova** bəzi reyestrlərdə məlumatların konfidensial olduğunu və bununla əlaqədar olaraq həmin məlumatların ictimaiyyətə açıq olmadığını, həmçinin bəzi qurumlarda əmlak qeydiyyatının excel fayllarda aparılması səbəbindən informativ xarakterli link vermənin mümkün olmadığını bildirdi. **Rəşad Orucov** daşınar əmlakın yüklülüyünün aparılması üzrə vahid reyestr və ya qeydiyyatın fərqli qurumlarda aparılması olmaqla fərqli ölkə təcrübələrinin olduğunu vurğuladı. O, daşınar əmlakların vahid informasiya sistemlərində qeydiyyatı və ya məlumatların informativ xarakterli inteqrasiya olunması üzrə yanaşmanın müəyyən olunmasına ehtiyac olduğunu bildirdi və məsələnin Dünya Bankının metodologiyasına uyğun olaraq dəqiqləşdirilməsini təklif etdi.

Azərbaycan Kredit Bürosunun baş direktoru **Elçin Həbibov** məlumatların transsərhəd ötürülməsinin təkcə Azərbaycanda deyil, bir çox ölkələrdə də aparılmadığını qeyd etdi və bu istiqamətdə yalnız Avropa İttifaqında vahid çərçivənin olduğunu bildirdi. O, həmçinin bu istiqamətdə fərdi məlumatların qorunması mexanizminin ölkələr üzrə fərqləndiyini və qanunvericilik çərçivəsinin qarşılıqlı olaraq təkmil olmasının vacibliyini qeyd etdi. **Elçin Həbibov** kredit bürosu tərəfindən məlumatların transsərhəd ötürülməsinin ilkin olaraq Türkiyə ilə aparılmasının mümkün ola biləcəyini bildirdi və məlumatların ötürülməsi üzrə infrastrukturun qurulmasına ehtiyac olduğunu nəzərə çatdırdı. **Rəşad Orucov** kredit bürosu tərəfindən məlumatların transsərhəd ötürülməsi zamanı məlumatların ölkədən kənara ötürülməsi və milli təhlükəsizlik baxımından həssas yanaşma tələb etdiyini və bu istiqamətdə digər ölkə təcrübələrinin ciddi araşdırılmasının vacibliyini vurğuladı. O, bu istiqamətdə əldə olunacaq faydalar və yaradacağı risklər dərindən təhlil edilməklə yanaşmanın müəyyən edilməsini təklif etdi.

Qərara alındı:

1. Biznes Ready hesabatının Maliyyə xidmətləri üzrə qiymətləndirmə sorğusu müvafiq suallara dair mövcud hüquqi aktlara, habelə qəbul olunması gözlənilən qanunvericilik aktlarına istinadlar göstərilməklə yenidən cavablandırılsın;
2. Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlər, habelə yaşıl istiqrazların buraxılması üzrə digər qurumlarla birgə icrası zəruri olan təşəbbüslər müəyyən edilsin və 2023-cü il üzrə Yol Xəritəsinə daxil edilməsi üçün müvafiq təkliflər 20.08.2023-cü il tarixədək Komissiyaya təqdim edilsin;
3. Daşınar əmlakın yüklülüyü üzrə vahid reyestrin yaradılması istiqamətində Dünya Bankının metodologiyasına uyğun olaraq yanaşma dəqiqləşdirilsin və müvafiq təkliflər İşçi qrupunun rəhbərinə təqdim edilsin;
4. Azərbaycan Kredit Bürosu tərəfindən digər ölkələrin büro/reyestrləri ilə məlumat mübadiləsinin aparılması üzrə beynəlxalq təcrübə aşadırılsın, əldə olunacaq üstünlüklər və təhdidlər göstərilməklə müvafiq yanaşmalara dair təkliflər İşçi qrupunun rəhbərinə təqdim edilsin;
5. Biznes Ready hesabatının Maliyyə xidmətləri üzrə sorğunun cavablandırılması nəticəsinə uyğun olaraq müvafiq arayış yenilənsin, potensial təkmilləşmə sahələri konkret qruplar üzrə qeyd olunsun və yenilənmiş arayış və sorğu anketi (işçi qrupu üzvləri ilə razılaşdırıldıqdan sonra) 20.08.2023-cü il tarixədək Komissiyanın Katibliyinə təqdim olunsun.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" İşçi qrupunun rəhbəri, Mərkəzi Bankın sədrinin birinci müavini

Rəşad Orucov

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" İşçi qrupunun katibi, Mərkəzi Bankın böyük iqtisadçısı

Kənan Musayev